İPƏK YOLU, No.3, 2024, səh.29-44
https://doi.org/10.30546/SI.2024.2.3.308

# AZƏRBAYCAN RESPUBLİKASINDA PENSİYA SİSTEMİNİN MALİYYƏ TƏMİNATININ AKTUAL PROBLEMLƏRİ

**Emin Əlirzayev**

Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC), Bakı, Azərbaycan
e-mail: alirzayev@gmail.com

**Xülasə.** Azərbaycanda sosial müdafiənin əsası rolunda çıxış edən pensiya təminatı sisteminin inkişafı hazırkı mərhələdə onun maliyyə imkanlarının genişləndirilməsi ilə daha çox bağlıdır. Məqalədə pensiya təminatının maliyyə resurs-bazasının yaxşılaşdırılması istiqamətində aktual problemlər təhlil edilir, sahə üzrə qərar qəbulu zamanı bu istiqamətdə diqqətə alınmalı məqamlar, pensiya sisteminin maliyyə təminatının gücləndirilməsi üçün ən vacib istiqamətlər göstərilir.

**Açar sözlər:** Sosial müdafiə, pensiya təminatı, sığorta-pensiya sistemi, məcburi dövlət sosial sığortası, maliyyə dayanıqlılığı.

## CURRENT PROBLEMS OF FINANCING THE PENSION SYSTEM IN THE REPUBLIC OF AZERBAIJAN

**Emin Alirzayev**
*Azerbaijan State University of Economics, Baku, Azerbaijan*

**Abstract.** At the current stage, the development of the pension system, which acts as the basis of social protection in Azerbaijan, is more related to the expansion of its financial capabilities. In the article, current problems in the improving the financial resource-base of pension provision are analysed and points to be taken into account in this direction during decision-making in the field are noted, the most important directions for strengthening the financial support of the pension system are indicated.
**Keywords:** Social protection, pension provision, insurance-pension system, mandatory state social insurance, financial sustainability.

## АКТУАЛЬНЫЕ ПРОБЛЕМЫ ФИНАНСИРОВАНИЯ ПЕНСИОННОЙ СИСТЕМЫ В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ

**Эмин Алирзаев**
*Азербайджанский Государственный Экономический Университет, Баку, Азербайджан*

**Резюме.** На современном этапе развитие пенсионной системы, выступающей в качестве основы социальной защиты в Азербайджане, больше связано с расширением ее финансовых возможностей. В статье анализируются текущие проблемы в совершенствовании финансовой ресурсной базы пенсионного обеспечения и отмечаются моменты, которые необходимо учитывать в этом направлении при принятии решений в данной области, указываются важнейшие направления усиления финансового обеспечения пенсионной системы.
**Ключевые слова:** Социальная защита, пенсионное обеспечение, страхово-пенсионная система, обязательное государственное социальное страхование, финансовая устойчивость.

## 1. Giriş

Müasir pensiya təminatı sistemi dəyişən sosial-iqtisadi şərtlər və ya amillərin əhatəsində olan iqtisadi idarəetmə sistemi olmaqla, statik olmayan yanaşma əsasında davamlı olaraq təkmilləşdirilməyə yönəldilən idarəetmə fəlsəfəsinə söykənilməsini tələb etməkdədir.

Pensiya təminatının inkişaf etdirilməsi təkcə sistemli idarəetmə əsasənda pensiya təminatının yaxşılaşdırılması ilə bağlı hərtərəfli maddi-maliyyə və digər texniki-təşkilati

resursların sığorta-pensiya (və ya pensiya təminatı) sistemi ilə əlaqələndirilməsi imkanlarının mümkün dəyərləndirilməsi və sistemin fəaliyyətinə cəlbi nəticələri ilə əlaqədar deyildir.

Bu gün ölkələrin pensiya sistemlərinin qlobal təsirlərin də formalaşdırdığı tələblər və gözləntilər nəzərə alınmaqla, yerli səviyyədə formalaşan sosial-iqtisadi mühitdə əhali ehtiyaclarının qarşılanması istiqamətində təznimlənilməsi şərtləndirilməkdədir.

Qəbuledilləndir ki, pensiya təminatının yaxşılaşması problemi fenomenal olaraq bilavasitə onun maliyyə çərçivəsinin genişlənməsi ilə vəhdətdə başa düşülür. Bu mənada pensiya təminatının yaxşılaşması, yaxud pensiya sistemində daha keyfiyyətli təminat son nəticədə pensiyaçının aylıq pensiya məbləği şəklində əldə etdiyi pul məbləğinin həcminin artımının dinamikasında özünü göstərməlidir.

Bu məqsədlərlə milli səviyyələrdə pensiya təminatı sistemlərinin inkişafına təsir göstərən faktorların elmi-nəzəri əsasda qiymətləndirilərək problem istiqamətlərinin müəyyənləşdirilməsi və müsbət istiqamətdə mümkün təsir imkanları dəyərləndirilən mexanizmlərin formalaşdırılmaqla tənzimləyici təbdirlərin görülməsi real praktiki əhəmiyyət kəsb etməkdədir.

Qlobal sosial-iqtisadi məkanın tərkib hissəsi kimi, dəyişkən ətraf mühit amillərinin təsirləri olan münasibətlər şəraitində Azərbaycanda Respublikasında sosial müdafiənin əsas sütunu olaraq pensiya təminatı sisteminin hazırkı inkişaf mərhələsində aktual maliyyə problemlərinin mütəmadi olaraq öyrənilməsi eyni zamanda ümumi sosial-iqtisadi inkişaf, eləcə də milli dövlətçiliyin möhkənləndirilməsi baxımından vacib məsələlərdən hesab edilir.

Tədqiqatın məqsədi Azərbaycanda sosial müdafiənin əsas hərəkətverici həlqəsi kimi dəyərləndirilərək pensiya təminatının sistem olaraq təkmilləşdirilməsi üçün prioritet əhəmiyyətli olan - onun maliyyə-resurs təminatının yaxşılaşdırılması ilə bağlı əsas istiqamətlərin, eyni zamanda başlıca problemlərin göstərilməsidir.

## 2. İnkişafın ümumi mənzərəsi və xarakterik cəhətləri

Pensiya sistemləri tarixi inkişaf prosesində sosial və iqtisadi münasibətlərin inkişafının təsirlərilə tədrici inkişaf yolu keçmiş və bu proseslərin nəticəvi xüsusiyyət istiqamətlərindən biri kimi, təminat formalarının təkmilləşməsi baş vermişdir.

Pensiya təminatının inkişafı özünü bu və digər dərəcədə müxtəlif aspektlərdən göstərməkdədir. Pensiya sistemini əhatə edən ətraf mühitdə daim dəyişən və yeni forma olan müxtəlif hadisə və tendensiyaların da təsirilə pensiya təminatının təkmilləşdirilməsi məqsədilə müasir şəraitdə onun tənzimlənilməsinin başlıca istiqamətləri formalaşmışdır. Bu baxımdan müasir pensiya sistemlərinin təkmilləşdirilməsi üzrə əsas istiqamətlər onun inkişafının əsas aspektləri üzərində qurulur və həmin istiqamətlər üzrə problemlərin qiymətləndirilməsi aparılır.

Bu mənada seçilən mövzu və məhdud imkanlar çərçivəsində Azərbaycanda pensiya təminatının təkmilləşdirilməsi ilə bağlı problemlərin müzakirəsi onun maliyyə əsaslarından irəli gəlməklə müzakirə olunmalıdır.

Keçmiş ictimai-iqtisadi quruluşun süqutundan sonra Azərbaycanda 1991-1994-cü illərdəki iqtisadi tənəzzül dövrünün ardından ictimai-siyasi münasibətlərin əlverişli məcraya qaytarılması ilə keçid iqtisadiyyatı dövrünün başlaması (1995-2004-ci illəri əhatə etməklə) ölkədə sosial-iqtisadi islahatların əhalinin sosial rifahının təşkili ilə bağlı islahatların həyata keçirilməsinə, əhalinin gərgin hal almış rifah durumunun yumşalmasına imkan verməklə, sonrakı yaxın dövr üçün sığorta-pensiya sisteminin (müasir pensiya təminatı sisteminin) əsaslarını da formalaşdırmağa imkan vermişdir.

Qeyd etməliyik ki, ölkədə pensiya sisteminin inkişafı xronologiyasında, xüsusilə sosial sığorta münasibətləri sistemində sığorta-pensiya sisteminin təşəkkül tapdığı dövr hesab edə biləcəyimiz - 2006-cı ildən sonrakı dövr ərzində əhalinin pensiya təminatının əsas göstəriciəri kimi, təyin olmuş aylıq pensiyaların orta məbləği statistikası pensiya təminatının maliyyə çərçivəsinin artan tendensiyada genişləndiyini göstərir. 2001-cı ildə qəbul edilmiş "Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında" və 2006-cı ildə qəbul edilməklə sığorta prinsipləri əsasında pensiya təyinatına keçilməsi fəlsəfəsinə dayanan "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının qanunları pensiya sisteminin formalaşması və fəaliyyəti ilə bağlı infrastruktur rolunu oynamaqla, eyni zamanda onun inkişafının baza strateji istiqamətlərinin də aydınlaşdırmasına gətirmişdir. Eyni zamanda pensiya təminatı sisteminin inkişafı hədəflərini özündə ehtiva edən ardıcıl dövlət proqramları və konsepsiyalarının qəbul edilməsi və icrası ilə bağlı görülən işlər, əhalinin rifah səviyyəsinin yaxşılaşdırılması istiqamətində sığortaolunanların fərdi uçot sistemində fərdi hesablarında sığorta-pensiya kapitallarının, eləcə də pensiyaların indeksləşdirilməsi ilə bağlı verilən sərəncamlar bu təsirləri daha da gücləndirmişdir. Aylıq pensiya göstəriciləri çox kiçik məbləğlərlə ifadə olunan 1995-2005-ci illər ərzində pensiyalar 14 dəfədən çox artdığı halda, 2006-2023-cü illərdə daha yüksək pensiya məbləğlərinin ödənildiyi bir ərəfədə artım əmsalının 13 dəfədən çox olması bu fikri möhkəmləndirməyə əsas verir.

Keçmiş SSRİ məkanından eyni dövrdə müstəqillik əldə etmiş ölkələrlə müqayisədə Azərbaycanda pensiya göstəricilərinin dinamik artımın təmin olunması ötən bu illərdə həyata keçirilmiş kompleks yenidənqurma və təkmilləşdirmə islahatlarının kifayət qədər effektli nəticələr verməsindən də xəbər verməkdədir.

2014-2023-cü illərdə iqtisadi inkişafın nəticəsi olaraq, ümumi daxili məhsul (ÜDM), əhali gəlirləri, o cümlədən əməkhaqları göstəricilərinin dinamik artımı Azərbaycanda sosial sığorta münasibətlərinin qurulmasından keçən ötən təxminən 30 illik bir dövr ərzində ölkədə ümumi iqtisadi inkişafın əhalinin sosial müdafiəsinin inkişafı ilə əlaqələndirilə bildiyini deməyə əsas verir. Bu illərdə əhali gəlirlərinin, o cümlədən orta aylıq nominal əməkhaqqının davamlı artımı fonunda məcburi dövlət sosial sığorta fondlarının (yığım) genişlənməsinin pensiyaların davamlı olaraq artırılması üçün maliyyə bazası yaratmışdır. Pensiyaların orta aylıq məbləğlərinin paralel şəkildə dinamik dəyişməsinin müşahidə edilməsi bunu təsdiq edən əlamətlərdən biri kimi qəbul edilə bilər. Dövr ərzində pensiya təminatı sisteminin artan maliyyələşmə imkanları pensiyaların nominal əmək haqqının illik artım templəri əsasında artırılması, eləcə də xüsusilə son dövrlərdə daha sıxlıqla tətbiq edilməklə pensiya təminatının

təşkili baxımından inzibati-siyasi idarəretmə qərarı mahiyyətini daşıyan, lakin mövcud qanunvericiliyə əsasən, məcburi dövlət sosial sığorta haqları hesabına formalaşan sığorta ehtiyatları hesabına maliyyələşdirilməsi aparılan minimum pensiya məbləğlərinin artımı islahatlarının da maliyyələşmə kəsintiləri olmadan, təyin edilmiş pensiyaların orta məbləğinin nominal əmək haqlarının artımı tendensiyası istiqamətində uyğun olaraq artmasının təmin edilməsinə imkan vermişdir. Əmək pensiyası xərclərinin ÜDM-də payı göstəricisi bu illər ərzində orta hesabla 4,90 faizə yaxın həddə olmuşdur. COVID-19 pandemiyası dövründə belə, ÜDM gəlirlərinin və əhali gəlirlərinin əhəmiyyətli azalması baş verməməklə, hətta məcburi dövlət sosial sığorta haqqı yığımının, orta aylıq pensiya məbləğlərinin və ümumilikdə əmək pensiyası xərclərinin daha çox artımı baş vermişdir ki, bu da pandemiyaya qarşı ölkədə aparılan kompleks mübarizə tədbirlərinin bir effekti olmaqla, sosial müdafiə sisteminə təsirlərinin minimuma endirilməsi ilə bağlı olduqca müsbət fəaliyyət nəticələrinin olduğunu və həmin dövrdə mümkün imkanlar daxilində sosial müdafiənin təşkilinin müvəffəqiyyətli aparıldığını deməyə imkan verir.

Hazırkı mərhələdə pensiya təminatının inkişafı bu rakursdan müsbət qiyməytləndirilə bilinməklə yanaşı, bu tendensiv dəyişikliklər maliyyə aspektindən mövcud problemlərin ilkin müəyyən edilməsi üçün kifayət etməməkdə və fərqli müqayisə meyarları seçilməsini zəruri etməkdədir. Bu istiqamətdə ilk növbədə orta aylıq pensiya məbləği göstəricilərinin digər sosial rifah əhəmiyyətli makrogöstəricilərlə, nominal və real əməkhaqqı, əhali gəlirləri və xərclərinin struktur göstəriciləri ilə müqayisəsi üzərində fokuslanılmaqla hərəkət edilməsi daha da məqsədəmüvafiq mahiyyət alır.

Eyni zamanda qlobal sosial-demoqrafik proseslərinin təsirilə pensiya sisteminin maliyyə-resurs bazasının genişlənməsi ilə bağlı təhdidlərin getdikcə hiss olunduğu müasir dövrdə pensiya sistemlərinin həmrəylik prinsipilə idarə olunmaqla məcburi dövlət sosial sığortasına əsaslanan birinci pilləsi çərçivəsində maliyyə vəsaitləri axının tənzimlənilməsi ilə bağlı preventiv təşəbbüslərin nəzarətdə saxlanılması prioritet əhəmiyyət qazanır. Xüsusilə qlobal miqyasda tendensiv olaraq sosial-demoqrafik proseslərinin xarakterik nəticəsi olaraq özünü göstərən və getdikcə vüsət alan əhali yaşlanması probleminin birpilləli pensiya sistemləri üçün maliyyələşmə yükü ilə bağlı təzyiqi artıması və uzunmüddətli dövr üçün maliyyələşmə kəsirinin yaranması, yaxud daha da kəskinləşdirməsi risklərini də özü ilə gətirməsi milli səviyyələrdə pensiya sistemlərinin idarə olunması ilə bu məsələlərə təsir göstərə biləcək istənilən amilin hərtərəfli müəyyənləşdirilməsi və dəyərləndirilməsini zərurətə çevirmişdir.

### 3. İnkişafa artan demoqrafik təsirlər

1995-ci ildən başlayaraq iqtisadi konyukturun əlverişli istiqamətdə dəyişməsi ölkədə sosial və iqtisadi münasibətlərin normallaşmasına, o cümlədən ilk növbədə əhali gəlirlərinin artımına, sosial sferanın, təhsil, səhiyyə sistemlərinin inkişafına və daha keyfiyyətli tibb xidmətləri ilə əhatə olunmasına, gələcəklə bağlı əhali stereotiplərinin müsbət yöndə

formalaşmasına təsir göstərməklə demoqrafik dəyişkənliklərin baş verməsinə də rəvac vermişdir.

Bu gün Azərbaycanda pensiya təminatının maliyyə əsaslarının gücləndirilməsi üçün iqtisadi əsaslı tənzimləyici yanaşmalar sistemin probemləri ilə mübarizədə effektli nəticələr əldə edilməsinə kifayət etməməkdədir. Belə ki, pensiya sistemini əhatə edən və pensiya sistemindən kənar mühit elementi olan sosial və ilk növbədə demoqrafik proseslərinin və dəyişmələrin nəzərə alınması labüd əhəmiyyət kəsb etməkdədir.

Statistik göstəricilərin təhlili əsasında görmək olar ki, Birinci dünya müharibəsindən sonrakı dövrdən etibarən tədrici davamlı artım göstərməklə əhalinin təbii artımı göstəricilərinin aşağı düşməsi ilə bağlı davam edən uzunmüddətli tendensiya Azərbaycanda demoqrafik dəyişmələrin mövcudluğundan, xüsusilə son on illik dövrə münasibətdə artıq tendensiv şəkildə demoqrafik əhali yaşlanması prosesinin baş verdiyini deməyə əsas verir.

Qeyd edilənlərlə yanaşı, ömür uzanmasına paralel olaraq, demoqrafik sahə ilə bağlı rəsmi statistik göstəricilərlə də təsdiqini tapmaqla bir-biri ilə qarşılıqlı təsirli olan sosial hadisə və proseslər olaraq boşanmaların sayının artması, əhalinin ümumi nəsilvermə (fertillik) əmsalının aşağı düşməsi (son 60 ildə 50-dan 1,5-ə qədər azalmaqla), reproduktiv yaş aralığında (statistik olaraq - 20-49 yaş) olan qadınların bütün yaş qrupları üzrə doğumun yaş əmsallarının aşağı düşməsi ölkə əhalisinin tərkibində yaşlı əhalinin payının getdikcə artmasına səbəb olur ki, bu da əmək bazarında hərəkətliliyə, dövlət pensiya sisteminin idarə olunması və inkişafı baxımından onun maliyyə bazası imkanlarının zəifləməsinə də təsir göstərir. Rəsmi statistikanın təhlili əsasında müəyyən etmək olur ki, Azərbaycanda 1990-2023-cü illər ərzində əhalinin tərkibində 65 və daha yuxarı yaşda olan əhalinin payı ümumi tendensiya göstərməklə 4,8 faizdən 8,5 faizə (və ya 77,08 faiz) yüksəlmişdir.

Əhali demoqrafiyası istiqamətində qlobal səviyyədə baş verən tendensiyalar olaraq qlobal sosial-iqtisadi sisteminin tərkib hissəsi kimi, Azərbaycanda da əhalinin artım tempinin aşağı düşməsinin gələcəkdə pensiyaçıların sayının aşağı düşməsinə öz təsirini göstərməklə ortamüddətli dövr üçün pensiya təminatı sisteminə, maliyyə-resurs-xərc təzyiqinin bir növ, səngiməsinə müsbət təsirlərini gözləmək olar, lakin əhali yaşlanması probleminin digər bir tərəfi özünü əməkqabiliyyətli yaşda əhalinin payının azalmasında və davamlı şəkildə sosial sığorta haqları ödəyəcək aktiv sığortaolunanların (əsasən muzdla işləyənlər) azalması ilə bağlı riskləri də özündə gətirməkdə olacaqdır ki, bu isə pensiya sistemi üçün qabarıq maliyyə problemi mahiyyəti kəsb etməkdədir.

## 4. Pensiya təminatının inkişafı ilə bağlı maliyyə əsaslı problemlərin əsas istiqamətləri

2023-cü il 4 aprel tarixində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin açıqladığı məlumata əsasən, orta aylıq pensiya məbləği göstəricisinə görə Azərbaycan Müstəqil Dövlətlər Birliyi ölkələri, Gürcüstan və Ukrayna ilə müqayisəli sıralamada ikinci yerdən birinci yerə yüksəlməklə orta pensiyanın aylıq məbləği dollar ifadəsində 249 ABŞ dolları təşkil etmiş, minimum və orta aylıq pensiya göstəricilərinin Alıcılıq

Qabiliyyəti Pariteti əsasında hesablanmış dollar ifadəsində də həmin sıralamada ilk yeri tutmaqda davam etmişdir [1].

Minimum pensiya məbləğlərinin artırılması ölkədə pensiya təminatının sosial müdafiənin əsas mexanizmi kimi qəbul edildiyini göstərməklə, bu sahənin dövlətin birbaşa maraq dairəsində olduğuna və eyni zamanda bu sahə ilə bağlı dövlət idarəetməsi səviyyəsində real siyasi iradənin mövcudluğuna işarə edir.

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun məlumatına əsasən, 2024-cü ilin yanvar-iyun aylarında pensiyaların orta aylıq məbləği ölkə üzrə pensiyaların orta məbləği 13% artaraq 491 manat, yaşa görə pensiyanın orta məbləği isə 525 manat təşkil etmişdir [2].

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin aylıq əsasda ölkənin iqtisadi və sosial inkişafının makroiqtisadi göstəricilərinə dair 2024-cü ilin yanvar-iyun dövrü üzrə açıqladığı operativ məlumatlara əsasən, 2024-ci ilin yanvar-mart aylarında orta aylıq nominal əmək haqqının məbləği isə 1003,3 manat təşkil etmişdir [3].

Yuxarıdakı hər iki göstərici əsasında hesablama aparsaq, 2024-cü ilin yanvar-iyun aylarında pensiyanın ümumi əvəzetmə əmsalının ən azından 48,9 faizə, yaşa görə pensiyaya münasibətdə əvəzetmə əmsalının isə 52,3 faizə yüksəldiyini qeyd etmək olar ki, bu da olduqca müsbət haldır.

Eyni zamanda pensiya təminatı sistemində sığorta prinsipinin gücləndirilməsi və maliyyə dayanıqlılığının artırılmasına yönəldilmiş 2017-ci ildəki qanunvericilik islahatları ilə başlanılmış növbəti idarəetmə mərhələsində pensiya təyinatı şərtləri üzrə pensiya yaşı, sığorta stajı ilə bağlı tələblərin müəyyən qədər çətinləşməsi (artması), 2018-ci ildən başlayaraq sistemdaxili nəzarət yoxlama tədbirlərinə start verilməsi, o cümlədən əsassız və şübhəli hesab olunan pensiya təyinatlarının, xüsusilə əllilliyə görə pensiyalara münasibətdə təyinat hallarına yenidən baxılması ilə ləğv edilməsi, demək olar ki, özünü 2019-2023-cü illərdə yaşa görə pensiyaçıların sayının davamlı azalması ilə pensiyaçıların ümumi sayında, eləcə də xüsusən əlilliyə görə pensiyaçıların sayının dəyişməsi tempində (azalmasında) göstərmişdir. Təkcə onu qeyd etmək kifayət edir ki, nəzərdən keçirdiyimiz dövr üzrə 2014-2018-ci illər arasında pensiyaçıların ümumi sayı illər üzrə davamlı artım göstərməklə 1 277 053 nəfərdən 1 318 434 nəfərədək artdığı halda (41 381 nəfər artım), 2019-2023-ci illərdə bu göstərici ümumilikdə 204207 nəfər azalaraq 1 114 227 nəfər təşkil etmişdir.

Qeyd edilən bu kimi tendensiyalar qısamüddətli dövr üçün Azərbaycanda pensiya təminatı sisteminin maliyyə imkanlarını yaxşılaşdırmağa, cari xərclərin davamlı və maneəsiz maliyyələşdirilməsini təmin etməyə imkan verməklə, eyni zamanda bütün xərclərin icrasından sonra qalmış əlavə resurs potensialının yaranmasına da şərait yaratmaqdadır.

2018-ci ildən etibarən pensiya sistemindən sığorta prinsipinə daha az əsaslanan güzəştli əsaslarla pensiya təyinatının, əsasən, aparıldığı əlilliyə görə pensiyaların təyinatı ilə bağlı nəzarət-monitorinq tədbirlərinin gücləndirilməsi də pensiya 2017-ci ilin islahatlarına məntiqli

davam mahiyyətində dəyərləndirilə bilməklə, sistemdə maliyyə səmərəliliyinin artırılması üçün dəstəkləyici imkanlar açmışdır.

Dövlət Sosial Müdafiə Fondu tərəfindən bəyan edilmiş məlumatlara əsasən, 2019-2020-ci illərdə saxta əlillik işlərinin aşkar olunaraq ləğv edilməsi nəticəsində aparılan nominal təmizləmələr, həm gəlirlərin müsbət dinamikasının, həmçinin xərclərdə aparılan optimallaşdırma işlərinin nəticəsi olaraq bu illərdə 750,0 mln. manat ətrafında vəsaitin dövlət büdcəsinə qaytarılmasına şərait yarandığı qeyd olunur [4].

Sadalanan məsələlərlə bağlı olaraq iqtisadi baxımdan qısamüddətli dövr üçün pensiya sistemi ilə bağlı müsbət meyllər yaranmış olsa da, əldə olunmuş nəticələr pensiya sisteminin mahiyyətindən və xüsusiyyətlərindən irəli gəlməklə uzunmüddətli perspektiv baxımından sistemin gələcək inkişafı yönündə konkret mülahizələr irəli sürməyə tam imkan vermir.

Belə ki, pensiya sistemi ilə bağlı baş verən bir sıra iqtisadi problemlər də mövcuddur ki, həmin problemlərin həlli istiqamətində əməli addımların atılması mühüm əhəmiyyət kəsb edir.

Müasir cəmiyyət həyatında sosial münasibətlərin təbiətinin, əhalinin sosial stereotipləri ilə bağlı qlobal müstəvidə baş verən proseslərin açıq iqtisadiyyat olan Azərbaycanı da əhatə etdiyininin göstəricisi olmaqla, bu proseslər iqtisadiyyatda ilk təsirini, hesab etmək olar ki, sığorta-pensiya sisteminə münasibətdə göstərməkdədir.

Artan demoqrafik yaşlanma prosesi fonunda pensiya sisteminin əsası olan dövlət sosial sığorta sistemi çərçivəsində məcburi dövlət sosial sığortası sistemin maliyyə resurslarının dinamik genişlənməsini ləngitməklə və ya qarşısını almaqla, başqa formada ifadə etdikdə, məcburi dövlət sosial sığorta haqlarının yığım potensialını aşağı salmaqla eyni zamanda əhalinin əsas sosial müdafiə formalarından hesab edilən dövlət pensiya təminatının gələcəyini maliyyə dayanıqlılığı baxımından təzyiqə məruz qoyur.

Məcburi dövlət sosial sığortasına əsaslanan pensiya sistemlərinə malik ölkələrdə aktiv sosial sığorta haqqı ödəyicilərinin (sığortaolunanların) sayınının tam şəkildə passiv sığortaolunanlar hesab edə biləcəyimiz pensiyaçıların sayına nisbətinin artırılmasına çalışılması, yaxud optimal həddinin gözlənilməsi və ya həmin həddin saxlanılması üçün tənzimləyici tədbirlərin görülməsi pensiya təminatının davamlılığı və maliyyə dayanıqlılığı baxımından labüd məsələlərdən hesab edilir. Pensiya sistemlərinin mahiyyətcə həmrəylik prinsipinə əsaslanması, başqa ifadə ilə desək, cari pensiya xərclərinin ödənilən sosial sığorta haqları hesabına maliyyələşdirilməsi qeyd edilən say nisbətinin gözlənilməsi vacibliyinin maliyyəlilik əsaslarını da ortaya qoyur.

Azərbaycanda dövlət sosial sığorta sistemi çərçivəsində ödənilən sosial sığorta haqlarının təkcə iqtisadi təsirlər nəzərə alınaraq ilbəil artırılan əmək pensiyaları xərclərinə deyil, həmçinin məcburi dövlət sosial sığorta haqlarına ödənilməsi qanunvericiliklə müəyyənləşmiş olan müavinətlər üzrə bir sıra sosial müavinətlərin maliyyələşdirilməsinə (hər iki istiqamət birlikdə əhaliyə ödənişlər hesab edilməklə), eyni zamanda idarəetmə sisteminin saxlanılması və idarə olunması ilə bağlı xərclərə də (bank xidmətləri, üzvlük haqları və s.) yönəldiyindən bir pensiyaçıya bir aktiv sığortaedən (sığortaolunan) düşməsi halının belə mövcudluğu maliyyə dayanıqlılığı baxımından etibarlı hesab edilə bilməməklə, bu əmsalın

artımına nail olunması müsbət tendensiya hesab edilir. Bu nisbətin mahiyyətindən də göründüyü kimi, aktiv sığorta haqqı ödəyicisi və pensiyaçı saylarına münasibətdə əvəzetmə əmsalını ifadə edən bu göstəricinin yaxşılaşdırılması ilk növbədə ölkədə iqtisadi aktivlik, sahibkarlıq mühiti və digər bu kimi iqtisadi mahiyyətli amillərlə bağlıdır.

"Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununa əsasən, sığorta-pensiya (pensiya təminatı) sisteminin idarəetmə xərcləri - məcburi dövlət sosial sığortası, fərdi uçot, əmək pensiyası və digər sosial ödənişlər sisteminin idarə edilməsinə yönəldilən və yuxarı həddi sığortaolunanlar üzrə ödənilmiş məcburi dövlət sosial sığorta haqlarının 2,5 faizi məbləğində müəyyənləşdirilən xərclərdir (bu xərclərin təsdiq edilən məbləğdən artıq olan hissəsi və istifadə edilməmiş qalığı sosial sığorta ehtiyatına aid edilir. Sosial sığorta ehtiyatı isə - sığortaolunanlar üzrə ödənilmiş məcburi dövlət sosial sığorta haqlarının fərdi hesabın sığorta hissəsinə və idarəetmə xərclərinə yönəldilən hissəsi çıxıldıqdan sonra yerdə qalan məbləğdə formalaşdırılan, əmək pensiyalarının bu Qanunda müəyyən olunmuş əmək pensiyasının minimum məbləğinə çatdırılması, məcburi dövlət sosial sığorta haqları hesabına müavinətlər və digər ödəmələr üzrə xərclərin maliyyələşdirilməsinə yönəldilən və ilin sonuna istifadə edilməmiş qalığı növbəti ilə keçən vəsait kimi təsbit olunmuşdur).

Azərbaycanda məcburi dövlət sosial sığorta haqqı ödəyicilərinin əksər hissəsininin (əmək müqaviləsi əsasında) muzdla işləyən sığortaolunanlardan toplanıldığını, muzdlu işə görə məcburi dövlət sosial sığorta normativinin isə hazırda 25% təşkil etdiyini, muzdla işləyənlərlə bağlı rəsmi statistikanın da muzdla işləyən üzərində qurulduğunu (hərbi qulluqçular, xüsusi rütbəli şəxslər həmin göstəricilərdə ehtiva olunmamaqla), qanunvericiliklə məcburi dövlət sosial sığorta haqlarına cəlb edilməyən əməkhaqqı fondu hissəsi üzrə hesablanılan hissənin də mövcudluğu və  hərbi qulluqçular, xüsusi rütbəli şəxslərin sayının isə əhəmiyyətli paya malik olmadığını hesab olunmaqla və bu baxımdan təsirsiz faktor kimi nəzərə alınmaqla, toplanılan məcburi dövlət sosial sığorta haqlarının məbləği, həmin il üzrə orta aylıq nominal əməkhaqqı, pensiyaçıların sayı göstəriciləri əsasında aktiv sosial sığorta haqqı ödəyicilərinin orta sayının tapılması ilə Azərbaycanda aktiv sığorta haqqı ödəyicisi və pensiyaçı saylarına münasibətdə əvəzetmə əmsalının kalkulyasiyası ilə bağlı apardığımız hesablama nəticələri bu əmsalın 2014-2023-cü illərdə təqribən 1,045-dən yalnız 1,676-dək artdığını göstərir.

Qeyd edilməlidir ki, bu əmsalın xüsusilə pensiyaçıların sayının azalma yönündə dəyişməsinin daha böyük templərlə baş verdiyi son illər ərzində, bu azalmanın da təsiri ilə ümumilikdə yaxşılaşmasının müşahidə edilməsinə baxmayaraq, göstərici pensiya sisteminin prospektiv maliyyə təminatlılığı baxımından ümumilikdə aşağı hesab edilməlidir. Bu istiqamətdə apardığımız hesablama nəticələri göstərir ki, fərdi şəxsi hesab açılan sığortaolunanların sayının davamlı genişlənməsinə baxmayaraq, sığortaolunanların təqribən 60 faizlik hissəsini nizamsız sığorta haqqı ödəyənlər təşkil etməkdədir. Bu isə onu deməyə əsas verir ki, fərdi uçot sistemində qeydiyyatın artım statistikası və açılmış fərdi hesabların sayına nəzərən ölkənin pensiya təminatı sistemində məcburi dövlət sosial sığortası ilə əhatə olunma

ekstensiv formada daha çox genişlənməkdə olmaqla, belə demək mümkündürsə, məcburi dövlət sosial sığortasının dərininə genişləndirilməsini ehtiva edən onun maliyyə imkanlarının inkişafı üçün kompleks tədbirlərin görülməsinə ciddi ehtiyac vardır. Əvvəlki illərə də nəzər saldıqda Azərbaycan timsalında bu göstəricinin həmin dövrlərdə daha aşağı vəziyyətdə olduğunu görmək mümkündür.

Müasir şəraitdə isə beynəlxalq ədəbiyyat və məlumatlarda da rastlaşılmaqla təsdiqini tapdığı kimi, milli sığorta-pensiya sistemlərinin təşkili üzrə formalaşmış və kifayət qədər bənzər olmaqla standartlaşmış şərtlər daxilində maliyyə dayanıqlılığının təmin edilməsi baxımından bu əmsalın ən azından 4,0 təşkil etməsi münasib hesab edilməkdədir [5; 6, s.489; 7; 8, s. 697].

Bu baxımdan, hesab edirik ki, əlverişli əmsalının əldə olunması, həmçinin hazırkı pensiya təminatı sisteminin maliyyə dayanıqlılığının təmin edilməsi istiqamətində ilkin hədəf tənzimləmə mexanizmləri kimi, öz növbəsində dövlət sosial sığortasının təşkilinin tənzimlənilməsi müstəvisində sosial sığorta daxilolmalarının artımına gətirib çıxaran bütün mümkün tədbirlərdən istifadə edilməsi, əsasən də məcburi dövlət sosial sığortasından yayınmanın qarşısının alınması üçün tədbirlər görülməsi prioritet məsələlərdən hesab edilməlidir. Əmsalın vəziyyətinin yaxşılaşdırılması üçün məcburi dövlət sosial sığortası normativinin dəyişdirilməsinə prioritet olaraq yanaşılmamalı və ehtiyatlılıq göstərilməlidir. Pensiya yaşının artırılması ilə pensiya sisteminə pensiyaçı axının qarşısının alınması hesabına da bu göstəricinin yaxşılaşdırılmasına çalışılması sosial müdafiənin mahiyyəti, məqsədləri və prinsipləri baxımından adekvat addım hesab edilməməklə, pensiya təminatının yaxşılaşdırılması istiqamətində ciddi nəticələr əldə olunmasına vəd verməməkdədir. Beləliklə, pensiya sisteminin maliyyə dayanıqlılığının gücləndirilməsi məqsədilə qısamüddətli tənzimləmə mahiyyətini daşıya biləcək bu mexanizmlərdən istifadə edilməsinin müvafiq hesablamalar aparmaqla müəyyən edilən yalnız zəruri hədlərdə aparılması məqsədəmüvafiq hesab edilir. Həmin ərəfədə isə pensiya sisteminin maliyyə dayanıqlılığının gücləndirilməsi istiqamətində məcburi dövlət sosial sığorta haqları hesabına formalaşan dövlət sosial müdafiə fondu vəsaitlərindən səmərəli istifadə edilməsinin diqqət mərkəzində saxlanılması, izafi xərclərə yol verilməməsi, sosial-iqtisadi effekti baxımından labüd hesab edilməyən bütün xərc istiqamətləri üzrə məsrəflərin azaldılmasına, yaxud həmin xərc istiqamətlərinin ümumilikdə aradan qaldırılması, həmçinin sərbəst vəsaitlər yarandığı təqdirdə həmin vəsaitlərin maliyyə bazarında dəyərləndirilməsi ilə dividendliyinin təmin edilməsi, xüsusən də investisiya hesabına formalaşdırılan əlavə maliyyə resurslarının mühafizə edilməklə yalnız pensiya təminatının yaxşılaşdırılması məqsədlərilə sərf edilməsinin qərar qəbulu prosesində rəhbər tutulması qısamüddətli də olsa, ən münasib və zəruri hesab olunan tənzimləmə mexanizmi kimi qəbul edilməlidir. Təbiidir ki, bu göstəricinin tənzimlənilməsi yalnız sığorta-pensiya sisteminin idarəedilməsi imkanları çərçivəsində olmamaqla, sistemdən kənar baş verən sosial-iqtisadi, ictimai proseslərin təsir nəticəsi olaraq əhali yaşlanması prosesinin baş verməsilə əhalinin yaş piramidasında yaşlı əhalinin payının getdikcə və daha sürətlə artması nəticəsində də baş verməkdədir.

Bununla belə, Azərbaycanda statistik göstəricilərə münasibətdə başladığı görünən və pensiya sisteminin maliyyə perspektivi baxımından narahatedici mahiyyət kəsb edən - demoqrafik yaşlanma prosesi, hesab etmək olar ki, pensiya sisteminin cari maliyyə dayanıqlılığı baxımından hələlik bilavasitə təhdidedici hədlərə gəlib çıxmamışdır. Belə ki, ölkə əhalisinin tərkibində pensiya yaşı hesab edə biləcəyimiz 65 və daha yuxarı yaşda olan əhalinin payı davamlı artım göstərsə də, əməkqabiliyyətli yaş hesab edilən 14-64 və ondan yuxarı yaş aralığında olan əhalinin sayı nisbətini ifadə edən demoqrafik asılılıq əmsalı təqribən 1/8-ə (yəni 1 pensiyaçıya hələlik 8 əmək qabiliyyətli əhali düşməklə) bərabərdir. Bu məqam isə öz növbəsində aktiv sığortaolunan-pensiyaçı nisbəti üzrə əldə etdiyimiz əvəzetmə göstəricisi (1,676) ilə müqayisədə məşğulluq sahəsində olan imkanlardan hələ də tam və ya rasional istifadə edilmədiyi barədə münasibətin də formalaşmasına əsas verir. Bu isə ümumən pensiya təminatının cari maliyyə-resurs təminatı modeli çərçivəsində maliyyə resurlarından rasional istifadənin əhəmiyyətini daha qabarıq ortaya qoymaqdadır.

Demoqrafik proseslərin idarə olunmasının qeyri-iqtisadi mahiyyət kəsb etməyən pensiya sistemindən kənarda inkişaf edən digər kənar amillərlə bağlı olduğunu nəzərə aldıqda, həmçinin Azərbaycan kontekstində pensiya sisteminin maliyyə dayanıqlılığının təmin edilməsi istiqamətində ilk növbədə əlçatan sosial müdafiə rıçaqı olaraq, məşğulluğun təmin edilməsi ilə bağlı atılan addımlar fonunda məcburi dövlət sosial sığorta fondlarından səmərəli istifadə məsələsinin diqqət mərkəzinə alınması pensiya təminatı sisteminin maliyyə dayanıqlılığı probleminin həlli istiqamətində nəzərə alınması qaçılmaz və vacib olan prioritet seçim olaraq əhəmiyyət qazanır.

Hazırkı pensiya təminatı sistemində ödənilən vəsaitlərin cari xərclərin maliyyələşdirilməsinə yönəldilməsilə bərabər, sosial-iqtisadi mahiyyətilə yanaşı, eyni zamanda sosial-siyasi mahiyyət daşımaqla əslində, bir növ, dövlətin əhali qarşısında öhdəliklərini ifadə edən gələcək əhaliyə ödəniş xərclərinin, o cümlədən onun əksər hissəsini təşkil edən əmək pensiyası xərclərinin maliyyələşdirilməsi məqsədini daşıması və real olaraq hesablarda saxlanılmaması sosial sığorta haqlarının ödənilməsinin şərti yığımının həyata keçirildiyini və həmin vəsaitlərin toplanılmasının risklərlə bağlı olduğunu göstərməklə, bu baxımdan qənaətlə istifadəsini, həmçinin ödənilmiş həmin vəsait məbləğlərinin bazar dəyərinin saxlanılması (iqtisadi dəyərsizləşməsinin qarşısının alınması) zərurəti ilə idarə olunmasını zəruri edir.

Azərbaycanda mövcud pensiya təminatı sisteminin maliyyələşmə mənbəyini – büdcədənkənar dövlət fondu olaraq, əsasən, ödənilən məcburi dövlət sosial sığorta haqları hesabına formalaşmaqla (illərdən asılı olaraq gəlirlərinin təqribən 75-79 faizi) gəlir və xərc istiqamətləri parlament səviyəsində hər il ayrıca olaraq qəbul edilən qanunlarla müəyyən edilən dövlət sosial müdafiə fondunun büdcəsi, habelə Fonda balanslaşdırıcı məqsədlə onun pensiya qanunvericiliyinə görə dövlət büdcəsinin öhdəlikləri kimi müəyyən edilən xərclərinin maliyyələşdirilməsi üçün dövlət büdcəsindən köçürülən tranfertlər (həmçinin cüzi rəqəmlərlə - sair daxilolmalar) təşkil edir.

Bundan əvvəl də qeyd etdiyimiz - 2017-ci ildə pensiya qanunvericiliyinə dəyişikliklər hesabına pensiya xərclərinin müəyyən hissəsinin dövlət öhdəlikləri kimi müəyyənləşdirilərək dövlət büdcəsinin hesabına ödənilməsinin təsbit edilməsi dövlət sosial müdafiə fondunun büdcəsinin balanslaşdırma prinsipilə tərtib edilməsi əsas götürülməklə 2018-ci ildən başlayaraq pensiya təminatı sisteminin büdcəsi kimi dövlət sosial müdafiə fondunun büdcəsi haqqında qanunlar çəçivəsində ayrılan transfertlərin Fondun büdcəsinin balanslaşdırılması məqsədilə dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsi üçün dövlət büdcəsindən ayrılan vəsaitlər kimi icrası ilə nəticələnmişdir. Bu da dövlət büdcəsindən pensiya təminatının büdcəsinə vəsait ayrılmasında əsas məqsəd olaraq dövlət sosial müdafiə fondunun büdcəsinin gəlir və xərcləri arasında yaranan saldoya münasibətdə balanslılığının təmin olunması məqsədini ön plana çıxarmışdır.

Bu hal isə ilk növbədə "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanunun 6.2-ci maddəsinə əsasən, əmək pensiyasının sığorta hissəsinin 1992-ci ilin yanvarın 1-dək qazanılmış pensiya kapitalına əsasən formalaşan məbləği, habelə bu Qanunun 20-ci maddəsi ilə nəzərdə tutulan və dövlət qulluqçularına, hərbi və xüsusi rütbəli, habelə digər kateqoriyaya aid edilən şəxslərə təyin edilmiş pensiyaların tərkibi hissəsi kimi çıxış edən qulluq stajına görə əlavələri əks etdirən dövlət öhdəliklərinin dəqiq müəyyənləşdirilməsini (fondun sığorta əsaslı pensiya və müavinətlərlə bağlı öhdəliklərinə qarışdırılmaması üçün), bunun üçün isə pensiya sisteminin idarə edilməsi üçün müvafiq mərkəzləşdirilmiş elektron informasiya sisteminin məlumat bazalarının təkmilləşdirilərək sığorta-pensiya qanunvericiliyinin tələblərinə uyğunlaşdırılması labüd əhəmiyyətli hesab olunur. Sahə üzrə istiqamətlər üzrə faktiki icra göstəriciləri əsasında müəyyən ekonometrik hesablamların aparılması mümkün hesab olunsa belə, pensiyaların maliyyələşdirilməsində dövlət öhdəliklərinin dəqiq müəyyən edilməsi əslində mütləq şəkildə qeyd edilən kateqoriyalara münasibətdə hər bir pensiyaçının zəruri məlumatlarının tamlığını, həmin pensiyaçı ilə bağlı bütün maliyyələşdirmə hərəkətlərinin uçotunun və onunla bağlı dəyişikliklərin məlumat bazalarında dəqiq uçota alınmasını tələb edir.

Azərbaycanda büdcə sistemi haqqında qanunvericiliyə əsasən ali nəzarət orqanı olan Azərbaycan Respublikasının Hesablama Palatasının dövlət sosial müdafiə fondunun 2024-cü il büdcəsinə dair 2023-cü il 27 oktyabr tarixində təsdiq edilmiş rəy məlumatında da dövlət büdcəsindən ayrılan vəsaitin öhdəlik və balanslaşdırma üzrə sərhədlərinin, eləcə də öhdəliklərin cəmi məbləğinin dəqiq müəyyənləşdirilməsi zərurəti qabardılmaqla, bu ayırmaların, əvvəlki illərdə tərtib edilmiş rəylərdə də qeyd edildiyi kimi, Fondun gəlir və xərcləri arasında balansı təmin etmək məqsədini daşıdığı, ilkin proqnozların daha böyük məbləğdə nəzərdə tutulmasına və pensiya xərclərinin indeksləşdirilmə də nəzərə alınmaqla ilbəil xərclərinin artmasına baxmayaraq transfert göstəricilərin azalan dinamikada icrasının bilavasitə sığorta ehtiyatlarından istifadəni şərtləndirməklə sistemin maliyyə dayanıqlılığına da mənfi təsir göstərildiyi qənaətinə gəlinmişdir (həmin mənbə üzrə məlumatda qeyd edilir ki, 2024-cü ildə Fondun xərc proqnozu 6919,9, dövlət öhdəliyinin məbləği 2983,1 mln. manat proqnozlaşdırıldığı halda, transfertin proqnoz məbləği 1392,0 mln. manat nəzərə alınmışdır) [9, s.13-15].

Fondun 2024-cü il büdcəsi haqqında qanuna əsasən, hesablamalar aparmaqla (və yuxarıdakı mənbəyə əsaslanaraq dövlət öhdəliyinin məbləği - 2983,1 mln. manat götürülməklə) onun cəmi xərclərinin təxminən 95 faizlik hissəsinin pensiya xərcləri olduğunu, dövlət öhdəliyi kimi müəyyən olunan xərclərin pensiya xərclərinin təqribən 45 faizlik hissəsini əhatə etdiyini sezmək olur. Eyni zamanda məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmaların məbləği pensiya xərclərinin 84 faizə qədərini maliyyələşdirməyə imkan verməkdə, köçürülməsi nəzərdə tutulan transfertin məbləği isə pensiya xərclərinə münasibətdə yalnız təqribən 19 faizə qədər hissənin maliyyələşdirilməsinə imkan yaratmaqdadır. Bu hal isə belə bir fikir irəli sürməyə imkan yarada bilir ki, pensiya sistemində hazırda maliyyələşmələrin aparılması əhəmiyyətli ölçüdə (xərc tələbatının təqribən 26 faizi qədər) birbaşa yığımlara söykənməklə sığorta ehtiyatlarından xərclənilmə şəraitində baş verməkdədir.

Bu prizmadan demoqrafik, eləcə də iqtisadi-maliyyə əsaslı resurların pensiya sisteminin idarəetmə dövriyyəsinə cəlb edilməməsi kimi ehtimallarının da əlavə olaraq nəzərə alınması baxımından gələcəkdə pensiya xərclərinin artımı fonunda dövlət pensiya sisteminin maliyyələşmə ilə bağlı defisitlik riskinin ortaya çıxmasına şərait yaranacağını hesab etmək mümkün olmaqdadır.

Azərbaycanda qurulmuş inzibati-idarəetmə strukturunun imkanları, deyə bilərik ki, əmək fəaliyyəti həlqələrinin sığorta-pensiya sistemi ilə əhatə təmin olumasını təmin etsə də, pensiya təminatı sisteminin inkişafı ilə bağlı olan məsələlərdən biri də - xüsusən bəzi əmək fəaliyyəti sahələri üzrə ödənilən sosial sığorta haqqı məbləğlərinin minimum əmək pensiyasının təyin olunmasına imkan verəcək sığorta-pensiya kapitalını formalaşdırmaması rikliliyi ilə, yaxud bu sahələrdən toplanılan vəsaitlərin ümumi vəsait yığımında payının cüzi olması ilə bağlıdır.

1997-ci ildə qəbul edilmiş və ölkədə sosial sığorta sahəsində münasibətləri tənzimləyən, sosial sığortanın hüquqi, iqtisadi və təşkilati əsaslarını müəyyən edən “Sosial sığorta haqqında” Azərbaycan Respublikasının Qanunun 14.5-ci maddəsi üzrə ölkə üzrə müəyən edilən minimum əməkhaqqına münasibətdə müxtəlif dərəcələrlə hesablanılan məcburi dövlət sosial sığorta haqları muzdlu işə aid olmayan fəaliyyətdən gəlir əldə edən sığortaolunanlar üzrə (fərdi qaydada sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər, mülkiyyətində olan kənd təsərrüfatına yararlı torpaqları istifadə edən fiziki şəxslərin və ailə kəndli təsərrüfatlarının əmək qabiliyyətli ailə üzvlərinin hər biri üçün torpağın sahəsindən asılı olaraq məcburi dövlət sosial sığorta haqqı müəyyən edilməklə, mülki hüquqi xarakterli müqavilələrlə işləyənlər, xüsusi notariuslar, müəlliflik qonorarı ödəyən hüquqi və fiziki şəxslər, vəkillər kollegiyasının üzvləri, sərbəst mediatorlar, sərbəst auditorlar, sərbəst mühasiblər və s.) toplanılan məcburi dövlət sosial sığorta haqlarının həcmi ümumi yığımda cüzi pay təşkil edir. Qeyd olunmalıdır ki, yaxın ötən illər üzrə (2017-2024-cü illərdə) yalnız dövlət sosial müdafiə fondunun büdcəsi haqqında qanunlarla dövlət sosial müdafiə fondunun gəlirləri sırasında sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər üzrə məcburi dövlət sosial sığorta haqları üzrə proqnoz daxilolma rəqəmləri

qismində göstəricilərinin əldə olunması mümkün olan bu istiqamət üzrə daxilolma proqnozunun (xüsisilə kiçik (mikro) sahibkarlığın) və minimum əməkhaqqının artımına uyğun olaraq) artmalı olmasına, faktiki olaraq da məcburi dövət sosial sığorta haqları üzrə daxilolmaların dinamik artımının müşahidə edilməsinə baxmayaraq, bu kateqoriya sığorta haqqı ödəyicilərindən toplanılan yığımın proqnozunda əsaslı artım olmamış, əksinə, bu kateqoriyadan daxilolmaların ölkə üzrə cəmi yığmda payı cəmi daxilolma məbləğlərinin artmasına mütənasib olaraq 2,56 faizdən 1,19 faizədək azalmışdır.

Qeyd olunmalıdır ki, dövlət sosial müdafiə fondunun büdcəsi haqqında qanunlara əsasən sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər üzrə proqnozlaşdırılan daxilolmalar və illər üzrə rəsmi açıqlanılmış minimum aylıq əmək haqqı göstəricilərini nəzərdən keçirdikdə, qeyd etmək olur ki, minimum aylıq əməkhaqqının məbləğinin artırılması haqqında sərəncamlara əsasən 2017-2023-cü illərdə ölkə üzrə müəyyən olunmuş minimum aylıq əməkhaqqı məbləğinin 116,0 manatdan 345,0 manatadək (təqribən 2,97 dəfə) artmasına baxmayaraq, həmin illərdə bu kateqoriya üzrə proqnozlaşdırılan daxilolmaların məbləği bu dövr ərzində əsasən 60,0 mln. manat olmaqla, dəyişməz qalmışdır (2024-cü il büdcə qanununda 65,0 mln. manat müəyyən edilməklə). Bu da cari vəziyyətdə ilk başda nəzəri olaraq bu sahə üzrə ümumi yığım potensialının faktiki olaraq tam qiymətləndirilməməsi, o cümlədən müvafiq sığortaolunan kontingenti üzrə potensial məcburi dövlət sosial sığorta haqqı öhdəliklərinin yığımdan yayındırılması kimi halların da ehtimallar arasında nəzərə alınmasına rəvac verir. Bu mənada bu qəbildən məsələlərlə bağlı sığorta-pensiya sistemi çərçivəsində adekvat addımların atılması olduqca zəruri hesab edilir. Xüsusilə, məcburi dövlət sosia sığorta haqqı normativlərinin daha aşağı olduğu mülkiyyətində olan kənd təsərrüfatına yararlı torpaqları istifadə edən fiziki şəxslər olan sığortaolunanlar kateqoriyasına münasibətdə (minimum əməkhaqqında nisbətdə torpağın hektarlıq bölgüsü əsasında 2-10 faiz arasında) bu problem daha qabarıqdır (bu şəxslərin müəyyən hissəsi digər sahələrdə işləməklə məcburi dövlət sosial sığorta haqqı ödədiklərindən torpaqlardan istifadəyə görə sığorta haqqı ödənilməsindən azaddırlar). Bu isə qeyd olunan kateqoriya sığortaolunanlar tərəfindən sığorta-pensiya sisteminə ödənilən yığımlar onlar üçün potensial pensiya təminatı xərcləri üzrə sistemin formalaşan və getdikcə artan maliyyə ödəlikləri arasında uyğunsuzluğu və ya uzaqlaşmanı getdikcə artımaqdadır. Belə olduğu təqdirdə bu kateqoriyadan olan şəxslərin gələcəkdə sığorta-pensiya sistemi çərçivəsində minimum pensiya kapitalını formalaşdırmayacağına baxmayaraq, yalnız sığorta stajı tələbi əsasında pensiya təyinatı hüququ qazanacaqları gözlənilməklə, nəticə etibarilə həmçinin dövlət pensiya sisteminin sığorta əsası olmayan xərclərinin çoxalmasını başqa bir istiqamətdə şərtləndirmiş olacaqdır (ümumilikdə, mövcud qanunvericiliyə əsasən, sığorta haqları minimum əməkhaqqına münasibətdə müəyyən olunan kateqoriya sığortaolunanlarla bağlı analoji vəziyyət aktuallıq kəsb edir). Bu, eyni zamanda qeyd edilən qəbildən, eləcə də aşağı məbləğlərdə sığorta haqqı ödəyən digər kateqoriyalardan şəxslərin gələcəkdə əmək pensiyası hüququnu əldə etməməsi riskinin yaranmasını, yaxud daha aşağı məbləğlərlə ifadə olunan yaşa görə sosial müavinətlərlə təminata meyllənməsini

şərtləndirəcəkdir ki, bu da ölkədə yaşlı əhali təbəqəsinin sosial rifah vəziyyətinə mənfi təsirlər göstərə bilər.

Başqa bir tərəfdən minimum pensiya məbləğinin artırılması zamanı təyinatı baş vermiş pensiya məbləğlərinə münasibətdə yeni minimuma çatdırılma ilə əlaqədar zəruri maliyyə yükünün maliyyələşdirilməsinin dövlət büdcəsi tərəfindən transfertlər çərçivəsində qarşılanılmaması riski sığorta ehtiyatlarından əlavə olaraq istifadəni özü ilə gətirəcəkdir.

Bu kimi səbərlər də nəzərə alınmaqla, Azərbaycanın mövcud dövlət sosial sığorta sisteminə məcburi dövlət sosial sığorta vəsaitlərinin dövriyyəsi hesabına və ya digər mexanizmlərlə əlavə dəyər yaradılması bugünədək faktiki olaraq xarakterik olmadığından şərti yığıma əsaslanaraq toplanılan vəsaitləri əhali qarşısında dövlət pensiya sisteminin öhdəlikləri mahiyyətini daşıyan sığorta-pensiya sisteminin hələlik yeganə maliyyə resursu mənbəyini təşkil edən - məcburi dövlət sosial sığorta haqları fondundan olduqca qənaətlə istifadə edilməsi, sığorta-pensiya sisteminin əhaliyə yönəldilməmiş xərclərin azaldılması, ümumiyyətlə təxirəsalınması, yaxud ləğv edilməsi ilə mümkün hesab edilən bütün xərclənmələrin nəzarətə götürülməsi maliyyə idarəetməsi mexanizmlərinin prioritet istiqamətlərindən biri olaraq qəbul edilməlidir. Pensiya təminatının əsas maliyyə mənbəyi olan dövlət sosial müdafiə fondunun büdcə tərtibatı prinsiplərinə uyğun olaraq büdcəsinin xərclər hissənin tərkib hissəsi kimi müəyyən olunan saxlanılma xərclərinin proqnozunun icra faizinə münasibətdə yolverilən xətalılığın təmin olunması da vacib hesab etdiyimiz məsələlərdəndir. Hesab edirik ki, saxlanma xərcləri üzrə nəzərdə tutulmuş məbləğlər üzrə istifadə edilməmiş vəsait qalıqlarının ümumi vəsait rezervlərinin tərkib hissəsi olmaqla Fondun hesablarında qalaraq büdcə ilinin sonunda növbəti ildə maliyyələşdirilmələrə yönəldilməsinə baxmayaraq, proqnozun xərc tələbatının real qiymətləndirilməsi və kassa icrasının proqnoz göstəricisinə yaxın təmin olunmasına zəruri baxılması yanaşmasından uzaqlaşılması məqsədəmüvafiqdir. Belə ki, bu, idarəetmə qarşısında icra faizinin təmin olunması kimi də müəyyən mənada məcburiyyət yaranmasından uzaqlamağa imkan verməklə, bəzi hallarda izafi xərclərə, bir növ, sövq edilmənin də qarşısını almış olar. Pensiya sisteminin idarə olunması ilə bağlı xərclərin də maliyyə mənbələrini yenə də istənilən halda məcburi dövlət sosial sığorta haqları təşkil etdiyini nəzərə aldıqda, nəticədə sığorta-pensiya sistemində maliyyə resurslarının səmərəli istifadəsi üçün imkanlar genişləndirilməsi və dərinləşdirilməsi hazırkı - həmrəylik prinsipi üzərində şərti yığıma əsaslanan birpilləli pensiya sisteminin maliyyə dayanıqlılığı üçün də müsbət töhfələr verilmiş olar.

Bu istiqamətdə dövlət sosial müdafiə fondunun yaxın illər üzrə illik büdcələri haqqında qanun sənədlərinə nəzər yetirdikdə, saxlanılma xərclərinin həmin il üçün toplanılmış məcburi dövlət sosial sığorta haqlarının tam olaraq 2,5 faizi həcmində müəyyənləşdirildiyini görmək mümkündür ki, yuxarıda əks etdirdiyimiz qısa təhlili yanaşma daha aşağı əmsallar əsasında da saxlanılma xərclərinin müəyyələşdirilməsinin mümkün olduğunu göstərməkdədir, belə ki, qeyd edilən hədd qanunvericilik və maliyyəlilik nöqteyi-nəzərindən yalnız ən yuxarı hədd mahiyyyətini daşımaqdadır.

**Nəticə.** Müzakirə edilən məsələlərə əsasən, Azərbaycanda pensiya təminatının inkişafının hazırkı mərhələsində təminatın yaxşılaşdırılmasının əsası olan - maliyyə təminatının gücləndirilməsi üçün aşağıdakı əsas təkmilləşdirilmə istiqamətlərinin nəzərə alınması praktiki əhəmiyyət kəsb edir: Azərbaycanda hazırkı vəziyyətdə pensiya təminatının faktiki olaraq yeganə maliyyə mənbəyi rolunda çıxış edən dövlət sosial müdafiə fondu vəsaitlərindən səmərəli və təyinatına uyğun istifadə ilə bağlı bütün imkanların səfərbər edilməsilə, bu prinsiplər çərçivəsində təhlillərə əsaslanan və elmi əsaslandırılmış qərarların verilməsi, pensiya təminatı sisteminin artan maliyyə dayanıqlılığı probleminin nəzarətə götürülməsi təxirəsalınmaz əhəmiyyətlidir. Bu istiqamətdə ilk növbədə sığorta əsası olmayan pensiya xərclərini formalaşdıran pensiya təyinatı şərtlərinə yenidən baxılmasını vacib hesab edirik. Sığorta ehtiyatlarının qorunması və maliyyə dayanıqlılığının gücləndirilməsi üçün dövlət öhdəliyi kimi təsbit olunan pensiya xərclərinin məbləğinin dəqiq müəyyən edilməsi və transfertlərin həmin öhdəliklər həcmində köçürülməsi zəruri əhəmiyyətlidir ki, bu məqsədlə büdcə tərtibatının balanslaşdırılma prinsipindən çıxması vacib əhəmiyyət kəsb edir. Əmək bazarında məcburi dövlət sosial sığorta haqları üzrə yığım potensialının artımına gətirib çıxaracaq əmək münasibətlərinin şəffaflaşdırılması tədbirlərinin gücləndirilməsi, pensiya yaşlı əhalinin də əmək bazarını tərk etməməsinə stimul yaradacaq mexanizmlərin tətbiqi müsbət nəticələr verə bilər.

## Ədəbiyyat

1. https://sosial.gov.az/media/xeberler/azerbaycan-orta-ayliq-pensiya-meblegine-gore-mdb-olkeleri-gurcustan-ve-ukrayna-uzre-siralamada-ilk-yere-yukselib (Müraciət tarixi: 01.07.2024).
2. https://dsmf.gov.az/post/pensiya-odenislerine-391-mln-manat-cox-olmaqla-3-mlrd-234-mln-manat-yoneldilib (Müraciət tarixi: 07.07.2024).
3. https://www.stat.gov.az/news/macroeconomy.php?page=1&lang=az (Müraciət tarixi: 10.07.2024).
4. https://apa.az/az/social-news/DSMF-sdri-6500-dn-artiq-saxta-lillik-isi-lgv-edilib-626116 (Müraciət tarixi: 10.07.2024).
5. Acar İ., Kitapcı İ. (2008), Sosyal güvenliğin demografik boyutu: Türkiye'deki emeklilik sistemindeki değişim. Maliye Dergisi, Vol.154, 77 - 98.
6. Yaman Y. (2020), Emeklilik sisteminde yapısal dönüşümün zorunluluğu: Kademeli yaş artışı. Hak İş Uluslararası Emek ve Toplum Dergisi, Vol.9, No.25, 470-491. https://doi.org/10.31199/hakisderg.768434
7. Bolukçu F. (2020), Türkiye’nin sosyal güvenlik harcamalarının kapsamı ve finansmanı. TÜSBAD-Türkiye Sağlık Bilimleri ve Araştırmaları Dergisi, Vol.2, No.2, 11-27.
8. Cural M. (2016), Türk sosyal güvenlik sisteminin mali yapisi ve sisteme yapilan bütçe transferlerinin ekonomik yansimalari. Süleyman Demirel Üniversitesi İktisadi ve İdari Bilimler Fakültesi Dergisi, Vol.21, No.2, 693-706.

9. Azərbaycan Respublikasi Hesablama Palatası. (2023), Dövlət sosial müdafiə fondunun 2024-cü il üçün büdcə layihəsinə Azərbaycan Respublikası Hesablama Palatasının rəyi, 55. https://sai.gov.az/files/DSMF%202024%20r%C9%99y-700648861.pdf